Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 91** **QƏRAR** **Bakı şəhəri, 25 fevral 2016-cı il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 mart tarixli 50 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında

"Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1285-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 567 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 mart tarixli 50 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 257; 2006, № 1, maddə 59; 2007, № 9, maddə 922; 2009, № 10, maddə 846; 2010, № 11, maddə 1039; 2011, № 5, maddə 442; 2013, № 6, maddə 760; 2015, № 9, maddə 1074; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 22 dekabr tarixli 399 nömrəli qərarı) ilə təsdiq edilmiş "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 5.1-ci bənddə "sahibi olan səhmdarının" sözləri "mülkiyyətçisinin" sözü ilə əvəz edilsin.

2. 5.2.2-ci yarımbənddə "reyestr saxlayıcısına" sözləri "mərkəzi depozitara" sözləri ilə əvəz edilsin.

3. 5.10-cu bənddə "sahiblərinin" sözü "mülkiyyətçilərinin" sözü ilə əvəz edilsin.

4. 5.12-ci bəndin ikinci cümləsində "ləğv edilməlidir" sözləri "dövriyyədən çıxarılmalıdır" sözləri ilə əvəz edilsin.

5. 5.14-cü və 5.16-cı bəndlər ləğv edilsin.

6. 5.15-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.15. Cəmiyyətin səhmdarlarının reyestri mərkəzi depozitar tərəfindən aparılmalıdır.".

7. 6.14-cü bəndin birinci cümləsində "sahibləri" sözü "mülkiyyətçiləri" sözü ilə əvəz edilsin.

8. 8.5-ci və 10.2-ci bəndlərin birinci cümlələrində "sahiblərinin" sözü "mülkiyyətçilərinin" sözü ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***